## NƏTİCƏLƏRƏ DAİR BÜLLETEN

# Azərbaycanda Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

**Sentyabr 2020**

### Əsas rəqəmlər

- 2015-ci ildən bəri iki ardıcıl mərhələ.
- YİT II çərçivəsində 16 layihə
- 2.082.600 avro dəyərində büdcə ilə Azərbaycan üçün ölkənin ehtiyaclarına uyğun 3 layihə
- Azərbaycanı əhatə edən 3 regional layihə

### Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq nə deməkdir?

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı (YİT) vasitəsilə Avropa İttifaqı və Avropa Şurası Şərq Tərəfdaşlığı regionunda (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna, Belarus) idarəçiliyin gücləndirilməsi uğrunda birgə çalışırlar.

YİT Şərq Tərəfdaşlığı ölkələrinə insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində qanunvericiliyi və təcrübəni Avropa standartlarına yaxınlaşdırmaq üçün ehtiyaclara uyğunlaşdırılmış dəstək verir.

## Layihə: Çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi (yanvar 2019 - dekabr 2021)

*YİT II, **çirkli pulların yuyulmasına, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və cinayət yolu ilə əldə edilmiş gəlirlərin bərpası məqsədilə** qanunvericilik və institusional islahatları və potensialın inkişafını Avropa standartlarına uyğun şəkildə dəstəkləyir.*

- **Operativ maliyyə məlumatı toplanması ilə məşğul olan işçilərin texniki potensialı**, layihə tərəfindən təşkil olunan açıq mənbələr üzrə məlumatların təhlili və maliyyə məlumatlarının strateji təhlili üzrə spesifik təlimlər vasitəsilə inkişaf etdirilmişdir.
- **Prokurorlar, müstəntiqlər, hakimlər və digər hüquq-mühafizə orqanlarının** qarşılıqlı hüquqi yardım üzrə **potensialı** xarici yurisdiksiyalardan imtina əsaslarını minimuma endirmək üçün məqsədyönlü təlimlər vasitəsilə gücləndirilmişdir.
- Azərbaycanın səlahiyyətli qurumlarının sorğusuna cavab olaraq, layihə səlahiyyətli qurumların **çirkli pulların yuyulması vəterrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə milli qanunvericilik çərçivəsini təkmilləşdirmək səylərini dəstəkləmişdir.** Terrorçuluq və onun maliyyələşdirilməsinə qarşı məqsədyönlü maliyyə sanksiyalarının tətbiqi ilə bağlı milli qanunvericilik bazası ilə yanaşı, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Qanun layihəsinə dair hüquqi rəylər təqdim edilmişdir.

[Bu layihə barədə ümumi məlumat vərəqəsini internet səhifəsindən əldə etmək mümkündür.]

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

## Layihə: Məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması (mart 2019 - avqust 2021)

*YİT II, məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması və məhkəmə qərarlarının icrası vəziyyətinin yaxşılaşdırılması yolu ilə Azərbaycanın ədalət mühakiməsinə daha yaxşı çatımı təmin etmək səylərini dəstəkləyir.*

- **Beynəlxalq qabaqcıl təcrübələrə dair araşdırma** məhkəmə qərarlarının icrasının alternativ mexanizmləri və icranın özəl qurumlara həvalə edilməsi üzrə tövsiyələr təqdim etmişdir. Layihə potensialın artırılması fəaliyyətləri vasitəsilə icra sistemində islahat aparmaq məqsədilə ekspertlərin Ədliyyə Nazirliyinə təqdim etdikləri tövsiyələri dəstəklədi.
- Mülki və inzibati işlər üzrə **məhkəmə qərarlarının icrası sistemi üçün yeni qanunvericilik bazası** hazırlanmış və layihənin dəstəyi ilə İcra Məcəlləsi Avropa Şurasının tövsiyələrini özündə əks etdirmək məqsədilə nəzərdən keçirilmişdir.
- **20 hakim və 22 məhkəmə aparatı işçisi**, iki seminarın təşkil edilməsi vasitəsilə məhkəmə fəaliyyəti barədə hesabat hazırlanması məqsədilə məlumatların toplanması, monitorinqi və təhlili üçün Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətləri və metodologiyası haqqında **biliklərini artırmışlar**.
- Azərbaycanda bütün məhkəmələrin məhkəmə fəaliyyəti barədə hesabatlarını vahid qaydada təmin etmək və bununla da məhkəmə sisteminə ictimaiyyətin inamını artırmaq, onun müstəqilliyini və səmərəliliyini artırmaq məqsədilə layihə tərəfindən **CEPEJ səmərəlilik və keyfiyyət ölçü alətlərinin yayılmasına dair yol xəritəsi** hazırlanmışdır.

Bu layihənin hər iki komponenti haqqında ümumi məlumat vərəqəsini internet səhifəsindən əldə etmək mümkündür.

## Layihə: Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması (iyul 2020 - dekabr 2021)

*YİT II Azərbaycanda Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası) və digər gender bərabərliyi standartlara dair məlumatlılığı artırır.*

- Layihə **İstanbul Konvensiyasının imzalanması və ratifikasiya edilməsi istiqamətində Azərbaycan hökumətinə dəstək** vermək və milli qanunvericiliyi və siyasəti Avropa standartlarına uyğunlaşdırmaq məqsədi daşıyır.

Bu layihə haqqında ümumi məlumat vərəqəsini İnternet səhifəsindən əldə etmək mümkündür.

Funded by the European Union and the Council of Europe
EUROPEAN UNION
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
Implemented by the Council of Europe

**Ətraflı məlumat:**
https://pjp-eu.coe.int/en/web/YİT2/azerbaijan

**Əlaqə:**
Ogdp_YİT@coe.int
@partnershipgovernance
@CoeEapPCF

## Azərbaycanda həyata keçirilən regional layihələr:

- İqtisadi cinayətlərin qarşısının alınması və mübarizə tədbirlərinin gücləndirilməsi
- Qadınların ədalət mühakiməsinə çıxışı: İstanbul Konvensiyası və gender bərabərliyi üzrə digər Avropa standartlarının tətbiqi
- Ayrı-seçkilik, nifrət cinayətləri və nifrət nitqi qurbanlarının məhkəmədən kənar həll mexanizmləri vasitəsilə ədalət mühakiməsinə çıxışının gücləndirilməsi

Ətraflı məlumat üçün Regional Layihələr barədə məlumat bülleteninə bax

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe